# 4SİM ümidləri doğruldur

**Azərbaycan dünyada ilk ölkədir ki, dövlət qurumu səviyyəsində IV Sənaye İnqilabının Təhlil və Koordinasiya Mərkəzi (4SİM) formalaşdırıb və MDB məkanında bu mərkəzə evsahibliyi edir.**

Məlumat üçün bildirək ki, IV Dünya Sənaye İnqilabı Sənaye 4.0 kimi də tanınır. Sənaye 4.0 bəşəriyyətin inkişafında istehsal, texnologiyalar və süni intellekt, həmçinin robot texnologiyasının ən yüksək mahiyyətini xarakterizə edir.

Ənənəvi biznes modellərinin, proseslərin və əməliyyatların rəqəmsal transformasiyasından, "ağıllı əşya"lardan, "ağıllı fabrik"lərdən, "ağıllı səhiyyə"dən "ağıllı təhsil", "ağıllı kəndlər"ə kimi nə varsa, Sənaye 4.0 xəritəsinə aiddir. "Ağıllı aləm"in isə varlığını süni intellekt təşkil edir.

Xatırladaq ki, "Sənaye 4.0" terminini ədəbiyyata 2016-cı ildə professor Klaus Şvab gətirmişdir. Klaus Şvab Dünya İqtisadi Forumunun (DİF) təsisçisi və icraçı sədridir. Onun sənaye inqilablarının məzmun və mahiyyəti ilə bağlı, o cümlədən insan-maşın münasibətləri, robot texnikasının inkişaf etdirilməsi, reallığın geniş inteqrasiyası və maşın avtomatlaşdırılması haqqında nəzəri analitik təhlilləri vardır.

Tarixdə baş vermiş əksər inqilablar dağıdıcı təbiətə malik olsalar da, sənaye inqilabları nəticəsində yeni inkişaf modelləri meydana gəlmişdir. Son zamanlar istifadə olunan IV Sənaye İnqilabı ifadəsi tarixi aspektdən baxdıqda müasir dünyanın tələbi kimi ortaya çıxmışdır. Artıq bütün əhəmiyyətli beynəlxalq konfransların trend mövzusu olan Dördüncü Sənaye İnqilabı əhatə dairəsini genişləndirməkdədir. Elmi-texnoloji inkişaf, xüsusən rəqəmsallaşmanın sürətlənməsi IV Sənaye İnqilabını formalaşdıran təməl elementlərdən hesab edilir.

Azərbaycanda da ən yüksək səviyyədə Dördüncü Sənaye İnqilabı mövzusu gündəmdən çıxmır. Prezident İlham Əliyev bir neçə il əvvəl çıxışlarının birində demişdir: "Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir". Söz düşmüşkən qeyd edək ki, 4SİM-in yaradılmasının əsası 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun (DİF) prezidenti Borge Brende arasında niyyət protokolunun imzalanması ilə qoyulmuşdur.

Bir il sonra dövlət başçısının fərmanı ilə IV Sənaye İnqilabının yaratdığı imkanlardan bəhrələnmək istiqamətində görülən işlər və bu sahədə DİF ilə əməkdaşlığı genişləndirmək üçün 4SİM yaradıldı. Mərkəz Azərbaycanın IV Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir. Mərkəz DİF ilə 3 platforma - "Süni İntellekt və Maşın öyrənməsi", "Əşyaların İnterneti və Şəhər Transformasiyası" və "Rəqəmsal Ticarət" üzrə layihələrin icrasını və koordinasiyasını həyata keçirir. Bu gün işğaldan azad olunan ərazilərin bərpasında 4-cü Sənaye İnqilabı texnologiyaları tətbiq olunur. 4SİM vasitəsilə innovativ texnologiyaların Azərbaycana gətirilməsi "ağıllı" və "yaşıl Qarabağ"ın qurulmasına bir töhfədir.

SİM-in 2024-cü ilin yekunlarına dair hesabat konfransında da məhz bu platformaya söykənən faktlar vurğulanıb. Bildirilib ki, mərkəz 2030-cu ilədək ölkədə 650 müəssisənin rəqəmsal transformasiyasını həyata keçirməyi planlaşdırır. Bu proses cari il başlayacaq. Qeyd edilib ki, Sənaye 4.0-ın təşkilatlara müsbət təsiri olacaq. Belə ki, anbar xərcləri 20-40 faiz azalacaq, əmək məhsuldarlığı isə 15-30 faiz artacaq. Texnologiyanın inkişafı iş yerlərinin azalmasına deyil, əksinə, artmasına səbəb olacaq. Çünki süni intellektin arxasında böyük məlumat bazası dayanır və bu bazalar böyüdükcə həmin sahədə yeni ixtisaslar yaranır.

Mərkəzin icraçı direktoru Fariz Cəfərov məlumat verib ki, ümumilikdə 4SİM DİF çərçivəsində 8 mərkəz ilə əməkdaşlıq edərək ötən bir ildə 14 tədbir və 18 layihə həyata keçirib: "Rəqəmsal iqtisadiyyatın inkişafına dəstək vermək və ölkəmizin IV Sənaye İnqilabı texnologiyalarının faydalarından bəhrələnməsini, bu sahədə qabaqcıl dövlətlər sırasında qərarlaşmasını təmin etmək əsas hədəfimizdir. 10-a yaxın Azərbaycan startapı 4SİM-in dəstəyi ilə Çinin Tyanşin şəhərində təqdim olunub. Onlar Çində "unicorn" şirkətlərdə təcrübə keçib və investisiya cəlb etmək şansı əldə ediblər. Azərbaycanda 650-dən çox şirkət Sənaye 4.0 proqramından, yeni rəqəmsal transformasiya prosesindən keçəcək". İcraçı direktor onu da qeyd edib ki, vətəndaşların müraciətlərini artıq operatorlar deyil, süni intellekt cavablandıracaq: "Bu, bizə həm müraciətlərin mövzusunu, həm də cavabların keyfiyyət səviyyəsini müəyyən etməyə kömək edəcək. Həmçinin 2025-ci ilin sonunadək yeni çat-bot istifadəyə veriləcək".

Göründüyü kimi, qlobal rəqabət mühitinin gərgin olduğu indiki zamanda sahibkarlıq subyektlərinin, bizneslərin öz varlıqlarını qorumaq, rəqiblərindən bir addım önə çıxmaq üçün Sənaye 4.0 komponentlərinin tətbiqi mütləqdir. Çünki texnologiyalarda radikal dəyişikliklər böyük sürətlə baş verir. Dünən fantastik hesab etdiyimiz layihələr üzərində bu gün artıq innovasiya şirkətləri çalışır və uğur qazanacaqlar.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 8 mart (№52).- S.6.